# AKADEMİK TARİH VE DÜŞÜNCE DERGİSİ
*Academic Journal of History and Idea*

**Research Article**

**Received: 28.12.2025** **Accepted: 28.03.2026**



**Cavid Məmmədli***
*https://orcid.org/0000-0002-9710-2569*


# Angela Merkel dövründə Almaniyanın "Yeni Şərq siyasəti" və Rusiya: Avropa təhlükəsizlik arxitekturasında tarazlıq (2005–2021)

## Germany's "New Ostpolitik" and Russia under Angela Merkel: The Balance of European Security Architecture (2005–2021)


***Xülasə***

*Bu məqalə 2005–2021-ci illərdə Angela Merkelin kanslerliyi dövründə Almaniyanın Rusiyaya qarşı həyata keçirdiyi "Yeni Şərq siyasəti"nin transformasiyasını və onun Avropa təhlükəsizlik arxitekturasına təsirini təhlil edir. Tədqiqatda Almaniyanın enerji asılılığı, iqtisadi maraqlar və normativ prinsiplər arasında apardığı mürəkkəb balans axtarışı araşdırılır. Xüsusilə, 2008 və 2014-cü illərdə baş verən hadisələrdən sonra yaranan etimad böhranı, "Şimal Axını–2" layihəsi və transatlantik münasibətlərin təsiri ilə Almaniya siyasətinin həm daxili, həm də xarici müstəvidə transformasiyası işıqlandırılır. Məqalə göstərir ki, Merkelin siyasəti klassik "dialoq vasitəsilə yaxınlaşma" modelindən, təzyiq və diplomatiyanı birləşdirən "ikili yanaşma"ya doğru transformasiya olunmuşdur. Almaniya həm Rusiyaya qarşı sanksiyaların tətbiqində Avropa İttifaqının vahid mövqeyinin formalaşmasında aparıcı rol oynamış, həm də Rusiya ilə strateji kommunikasiya kanallarını qoruyub saxlamışdır. Nəticə etibarilə, Merkel dövrünün "Yeni Şərq siyasəti" nə tam qarşıdurma, nə də tam yaxınlaşma xətti kimi, dəyişən təhlükəsizlik mühitində çəkindirmə və əməkdaşlıq arasında institusional balansı qorumağa yönəlmiş kompleks strategiya kimi səciyyələndirilir.*



**Açar sözlər:** *Almaniya, Rusiya, Yeni Şərq siyasəti, Avropa təhlükəsizliyi, NATO*



*Doctoral Candidate, Baku State University, Department of Modern and Contemporary History of European and American Countries, Azerbaijan, mmmdlicavid1@gmail.com*



Citation: Məmmədli, C. (2026). Angela Merkel dövründə Almaniyanın "Yeni Şərq siyasəti" və Rusiya: Avropa təhlükəsizlik arxitekturasında tarazlıq (2005–2021). *Akademik Tarih ve Düşünce Dergisi, 13*(2). 1-19. https://doi.org/10.46868/atdd.2026.1093



***Copyright and License Statement —*** *© 2026 Akademik Tarih ve Düşünce Dergisi (Academic Journal of History and Idea). This article is published as an open access article under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc/4.0/). The article may be used, shared, adapted, distributed, and reproduced in any medium or format for non-commercial purposes, provided that appropriate credit is given to the author(s) and the journal. The authors are solely responsible for the scientific, legal, and ethical content of the article; the editors and editorial board disclaim all responsibility.*

***Abstract***

*This article examines the transformation of Germany's Russia policy within the framework of the "New Ostpolitik" during Angela Merkel's chancellorship (2005–2021) and its implications for the European security architecture. The study analyzes the complex search for balance pursued by Germany between energy dependence, economic interests, and normative principles. In particular, it highlights the erosion of trust following the events of 2008 and 2014, as well as the internal and external transformation of German policy under the influence of the Nord Stream 2 project and transatlantic relations. The article argues that Merkel's approach has undergone a transformation from the classical model of "change through dialogue" toward a dual-track strategy combining pressure and diplomacy. Germany played a leading role in shaping a unified European Union position on sanctions against Russia while simultaneously preserving channels of strategic communication with Moscow. Ultimately, Merkel's "New Ostpolitik" is characterized not as a policy of full confrontation or full rapprochement, but as a complex strategy aimed at maintaining an institutional balance between deterrence and cooperation within a changing security environment.*

***Keywords:*** *Germany, Russia, New Ostpolitik, European security, NATO*

## Giriş

Son iyirmi ildə Almaniyanın xarici siyasəti iki əsas xətt üzrə formalaşmışdır: bəzi aparıcı siyasətçilər Amerika və Qərbə yönəlmiş, digərləri isə Rusiya ilə münasibətlərin inkişafına üstünlük vermişdir. 1998–2005-ci illərdəki qırmızı-yaşıl koalisiya bu dinamikanın əyani nümunəsidir. Kansler Gerhard Şröderin ikinci kanslerlik dövründə əsas diqqət, ABŞ-nin müdaxiləsinə qarşı tarazlıq yaratmaq məqsədilə Rusiya ilə yaxınlaşma üzərində olmuşdur; eyni zamanda, Fransız tərəfdaşlığı siyasəti ilə birgə Avropada strateji balansın qorunması hədəflənmişdir. A. Merkelin kanslerliyi dövründə (2005–2021) Almaniyanın Rusiya siyasəti "Yeni Şərq siyasəti"nin tarixi ənənələri ilə müasir Avropa təhlükəsizlik çağırışları arasında balans axtarışı kimi formalaşmışdır. Soyuq Müharibənin sona çatmasından sonra Almaniya siyasi reallıqların qəbul edilməsi, dialoq kanallarının qorunması və qarşılıqlı iqtisadi asılılığın dərinləşdirilməsi kimi Şərq Siyasətindən miras qalan prinsipləri davam etdirməyə çalışmışdır. Bu çərçivə AFR-in Rusiya ilə münasibətlərində qarşıdurmadan daha çox əməkdaşlıq, etimad quruculuğu və Avropa təhlükəsizlik arxitekturasında sabitliyin qorunması məqsədlərinə əsaslanırdı. Lakin 2005–2021-ci illər ərzində Avropada təhlükəsizlik dinamikasının dəyişməsi – xüsusilə 2008-ci il Gürcüstan və 2014-cü il Ukrayna böhranları A.Merkel hökumətini ənənəvi "Şərq Siyasəti" ilə transatlantik öhdəliklər, enerji asılılığı və normativ-siyasi dəyərlər arasında çətin seçimlər etməyə məcbur etmişdir.

## Angela Merkelin kanslerliyinin birinci mərhələsində Rusiya siyasəti (2005–2008)

2005-ci ildə hakimiyyətə gələn XDİ–XSİ və SDP "Böyük Koalisiya" hökuməti, Rusiya ilə münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldırmağı xarici siyasətin prioriteti kimi müəyyən etmişdi. Koalisiya müqaviləsində əks olunduğu kimi, Berlinin əsas hədəfi Rusiyanın daxili modernləşməsinə dəstək verməklə yanaşı, onu Avropa dəyərlərinə yaxınlaşdırmaq və sabit demokratik sistemə keçidini təmin etmək idi. Bu sənəd Almaniyanın Rusiya ilə asılılıq yaratmayan enerji tərəfdaşlığına verdiyi önəmi və Rusiyanın qlobal təhlükəsizlik arxitekturasında, xüsusən də terrorizmlə mübarizədəki rolunu

vurğulayırdı. Eyni zamanda, AFR Rusiya ilə münasibətlərin ortaq qonşuların maraqları ilə ziddiyyət təşkil etməməsi prinsipini vurğulayaraq, regional sabitliyi ikitərəfli əməkdaşlığın ayrılmaz hissəsi kimi təqdim edirdi (CDU/CSU, 2005a) Yorq Himmelrayxın *Die deutsche Russland-Illusion* adlı monoqrafiyasında qeyd edilir ki, 2005-ci ildə Angela Merkelin hakimiyyətə gəlməsi Almaniyanın Rusiya ilə münasibətlərində üslub dəyişikliyi vəd etsə də, mahiyyət etibarilə Gerhard Şröder dövrünün strateji xəttinin davam etdirilməsi ilə nəticələndi. A. Merkelin Şərqi Almaniya mənşəli keçmişi ona Rusiyanın siyasi mədəniyyətini və dövlət təfəkkürünü dərindən anlamaq imkanı versə də, bu fərdi üstünlük Almaniyanın xarici siyasi kursunda köklü bir dönüş yarada bilmədi. A. Merkel öz sələfi Şröderin Putinlə olan və "kişi dostluğu" kimi xarakterizə edilən qeyri-rəsmi münasibətlərinə son qoysa da, iqtisadi müstəvidə Moskvanın enerji resurslarından asılılığı artıran siyasəti daha da dərinləşdirdi. Bu varisliyin ən bariz nümunəsi "Şimal Axını" (Nord Stream 1) layihəsidir. 2005-ci ildə bu layihə sadəcə hüquqi öhdəliyi olmayan bir niyyət protokolu statusunda idi. Lakin Merkel hökuməti, 2008-ci ildə Rusiyanın Gürcüstana hərbi müdaxiləsi ilə pisləşən regional təhlükəsizlik mühitinə və Şərqi Avropa ölkələrinin kəskin etirazlarına baxmayaraq, layihəni dayandırmaqdan imtina etdi. Əksinə, 2009-cu ildə layihənin tikintisinə rəsmi icazə verilməsi Almaniyanın enerji təhlükəsizliyinin geosiyasi amillərlə sıx bağlı olduğunu göstərirdi. Bu siyasətin arxasında həm daxili koalisiya dinamikası, həm də güclü iqtisadi lobbi maraqları dayanırdı. Merkel, Sosial Demokratlar Partiyası (SDP) ilə qurduğu "Böyük Koalisiya"nın daxili sabitliyini qorumaq naminə, Xarici İşlər Naziri Frank-Valter Ştaynmayerin Rusiya ilə münasibətlərdəki kompromisli xəttinə mane olmurdu. Ştaynmayer isə öz mənəvi atası Şröderin enerji əməkdaşlığına əsaslanan "kor" siyasətini davam etdirərək, Rusiyanın xarici siyasətindəki sərtləşməyə adekvat reaksiya vermirdi. Digər tərəfdən, Almaniyanın nəhəng enerji korporasiyalarının qısamüddətli mənfəət maraqları hökuməti Moskva ilə əlverişli əlaqələri qorumağa sövq edirdi. Nəticə etibarilə, Almaniyanın daxili siyasi sabitliyi qorumaq və iqtisadi dividendləri artırmaq kimi qısamüddətli motivləri ölkənin uzunmüddətli strateji maraqları və enerji müstəqilliyi ilə bağlı müzakirələri kölgədə qoyurdu (Himmelreich, 2024). Angela Merkelin rəhbərliyi ilə qurulan ilk koalisiya hökumətinin proqram sənədində Rusiyaya münasibət üç əsas istiqamət üzrə formalaşdırılmışdı. Rəsmi sənədə əsasən, Almaniya Rusiyanın "avroatlantik strukturlara" inteqrasiyasını və bu ölkədəki siyasi-iqtisadi modernləşmə prosesinin uğurla nəticələnməsini özünün strateji marağı kimi müəyyən etmişdi. Bu, mahiyyət etibarilə Soyuq müharibədən sonrakı dövrün "tərəfdaşlıq vasitəsilə təhlükəsizlik"

arxitekturasına sadiqliyin göstəricisi idi. Lakin 2005-ci il proqramı əvvəlki Şröder hökumətindən fərqli olaraq iki mühüm düzəlişi ehtiva edirdi:

**Regional həssaslıq və qonşuluq siyasəti**

Sənəddə xüsusi olaraq vurğulanırdı ki, Rusiya ilə münasibətlər "qonşuların mənafeləri üzərindən" (yəni Polşa, Baltikyanı ölkələr və digər Şərqi Avropa tərəfdaşlarını kənarda qoymaqla) qurulmamalıdır. Bu bəyanat, Şröder–Putin yaxınlığının yaratdığı "Berlin–Moskva oxu" narahatlığını aradan qaldırmağa və Almaniyanın Avropa Birliyi daxilindəki həmrəyliyini nümayiş etdirməyə yönəlmişdi.

**Daxili siyasi tənqid**

Koalisiya müqaviləsi Rusiyanın daxili siyasi inkişafındakı "problemli meyillərə" (demokratiya və insan haqlarının geriləməsi) göz yummayacağını bəyan edirdi. Bu, Merkelin xarici siyasətində "dəyərlərə əsaslanan diplomatiya" elementinin güclənəcəyinə dair verilən ilk rəsmi siqnal idi (CDU/CSU, 2005b).

2007-ci il Münxen Təhlükəsizlik Konfransında Vladimir Putinin məşhur nitqi, onun xarici siyasətindəki maskanın düşməsi və Qərblə strateji qopuşun başlanğıcı kimi qiymətləndirilir. Yorq Himmelrayxın qeyd etdiyi kimi, Putin bu çıxışında ABŞ-ın dominantlığına və NATO-nun genişlənməsinə qarşı kəskin mövqe nümayiş etdirərək, əsl hədəfinin dağılmış Rusiya imperiyasını bərpa etmək və beynəlxalq sistemdə multipolyar bir struktur formalaşdırmaq olduğunu açıq şəkildə bəyan etdi. Bu, faktiki olaraq Rusiyanın Yeltsin dövründə formalaşmış Avropa sülh arxitekturasından imtinası mənasına gəlirdi. Lakin Almaniyanın bu geosiyasi çağırışa reaksiyası strateji bir ayıqlıq deyil, əksinə, illüziyalara əsaslanan "Modernləşmə tərəfdaşlığı" (Modernisierungspartnerschaft) diplomatiyasını davam etdirmək oldu. Yorq Himmelrayx Ştaynmayerin "xülya daxilində hərəkət etmə traumtanz" siyasəti kimi xarakterizə edir. Bu isə o deməkdir ki, AFR ABŞ-ın şok və narahatlıqla qarşıladığı bu dönüşü görməzdən gələrək, Rusiyanı iqtisadi asılılıqlar vasitəsilə Qərbə bağlamaq kimi səmərəsiz cəhdlərini daha da intensivləşdirmişdir (Himmelreich, 2024).

Frank-Valter Ştaynmayerin xarici işlər naziri olduğu illərdə Almaniyanın Rusiya strategiyası "Qarşılıqlı asılılıq vasitəsilə yaxınlaşma" (Annäherung durch Verflechtung) doktrinası üzərində qurulmuşdu. Bu yanaşma mahiyyət etibarilə Rusiyanın daxili siyasi-sosial transformasını dəstəkləmək hədəfindən imtina edərək, əsas prioriteti birtərəfli iqtisadi inteqrasiyaya yönəldirdi. Tədqiqatçılar bu dövrü Almaniya diplomatiyasının əməkdaşlıq sferasını daraltması və özünü Rusiya qarşısında "tələb

edən tərəf" (demandeur) statusuna salması kimi xarakterizə edirlər. Belə ki, Almaniyanın strateji sənədlərində Rusiyanın fərqli inkişaf yolu izləməsi qəbul edilir və onun regional münaqişələrin həllindəki "əvəzolunmazlığı" vurğulanırdı. Bu siyasətin əsas məqsədi Rusiyanı iqtisadi və mədəni zəncirlərlə Avropaya "dönməz şəkildə bağlamaq" olsa da, praktikada bu, Almaniyanın geosiyasi manevr imkanlarının məhdudlaşmasına gətirib çıxarmışdı. 2007-ci ilin yanvarında Almaniyanın Aİ sədriyi başlamazdan əvvəl bu strategiya sənədinin hazırlanması böyük əhəmiyyət kəsb edirdi. Ştaynmayer, keçmiş Sovet respublikaları ilə münasibətlərdə yaranan sürtünmələrə və Rusiyanın demokratik dəyərlərə sadiqlik öhdəliklərindən geri çəkilməsi ilə bağlı Aİ-nin narahatlıqlarına baxmayaraq, Rusiyanın hələ də Avropada xoş qarşılandığını nümayiş etdirməklə yeni bir Aİ–Rusiya Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi üçün zəmin hazırlamağa çalışırdı. Məlumata görə, Ştaynmayer Rusiyanı Avropaya bağlamaq cəhdi uğursuz olarsa, onun Çinlə birlikdə Qərb əleyhinə bir ox formalaşdıra biləcəyindən qorxurdu. Xarici İşlər Nazirliyinin fikrincə, yenilənmiş Aİ–Rusiya sazişinə azad ticarət zonası və Rusiyanın Avropa təhlükəsizlik və müdafiə siyasətinə, o cümlədən mümkün birgə sülhməramlı əməliyyatlara cəlb edilməsi daxil edilməli idi. Strategiya sənədində enerji münasibətlərinə və enerji təhlükəsizliyinin qarşılıqlı hüquqi əsaslara, o cümlədən Aİ rəqabət qaydalarının qəbuluna söykənməsinin üstünlüklərinə xüsusi vurğu edilirdi. 2006-cı ilə qədər Avropada Qazpromun həm daxili, həm də beynəlxalq müştəriləri təmin etmək qabiliyyətinə dair şübhələr artırdı. Lakin Rusiyanın enerji diplomatiyasının təkamülü və enerji münasibətlərindən qonşularla əlaqələrdə siyasi üstünlük əldə etmək üçün istifadə olunması Berlində demək olar ki, heç bir narahatlıq yaratmırdı. Buna baxmayaraq, Merkel Almaniya və Rusiyanı birləşdirən yeni Baltik qaz kəmərinin (Nord Stream) inşasından sonra Polşanın Rusiya tərəfindən şantaj edilmə ehtimalı ilə bağlı narahatlıqlarını sakitləşdirməyə çalışırdı və Almaniyanın Aİ sədriyi dövründə Polşanın Aİ-nin ortaq enerji bazarına çıxışını təmin edəcəyinə söz verirdi. O, Rusiyaya qarşı adi realist yanaşmasından uzaqlaşaraq, Moskvadan Avropa investisiyalarını qoruyacaq Enerji Xartiyası Müqaviləsini ratifikasiya edəcəyinə ümid etdiyini bildirdi. Halbuki Putin qısa müddət əvvəl heç bir ratifikasiyanın olmayacağına dair siqnal vermişdi (Lough, 2021).

2007-ci ilin fevralında keçirilən Münxen Təhlükəsizlik Konfransı, Vladimir Putinin Qərbə qarşı ritorikasında kəskin mövqeyini və Rusiyanın beynəlxalq sistemdəki "marjinallaşma" qorxusunu açıq şəkildə nümayiş etdirdiyi bir platforma idi. Putinin çıxışı, ABŞ-ın rəhbərlik etdiyi monopolyar dünya düzəninə, NATO-nun şərqə doğru genişlənməsinə və Avropadakı raketdən müdafiə sistemlərinə qarşı

yönəlmiş sərt bir manifest xarakteri daşıyırdı (Putin, 2007). XXI əsrin ilk onilliyində Almaniya diplomatiyasının ən böyük strateji yanlışlıqlarından biri Rusiyanın hərbi potensialının bərpasını və Rusiyanın NATO-nun genişlənməsinə qarşı artan kəskin reaksiyasını düzgün qiymətləndirməməsi olmuşdur. Rusiya özünü SSRİ rəhbərliyinə verilmiş təhlükəsizlik vədlərinin qanuni varisi hesab edərək, Baltikyanı ölkələrin Alyansa daxil olmasını və Ukrayna ilə Gürcüstanın üzvlük cəhdlərini öz milli maraqlarına birbaşa təhdid kimi qəbul edirdi. Tədqiqatçı James Lough qeyd edir ki, AFR bu dövrdə Rusiya ordusunun Çeçenistan müharibəsindəki uğursuzluqlardan sonra sürətlə modernləşməsini və hərbi büdcənin sistematik şəkildə artırılmasını lazımi dərəcədə analiz edə bilməmişdi (Lough, 2021).

Almaniya diplomatiyasının Rusiya ilə münasibətlərdə nümayiş etdirdiyi qeyri-realist yanaşma 2008-ci ilin yayında baş vermiş Rusiya–Gürcüstan müharibəsi ilə ən ağır sınağına çəkildi. Müharibədən üç ay əvvəl xarici işlər naziri F. V. Ştaynmayer 2008-ci ilin mayında Yekaterinburqda etdiyi çıxışda Rusiyanı sabahın dünyasını formalaşdırmaqda "əvəzolunmaz tərəfdaş" (unverzichtbare Partner) adlandıraraq, "Modernləşmə Tərəfdaşlığı" (Modernisierungspartnerschaft) konsepsiyasının əsasını qoymuşdur. Lakin Rusiyanın Gürcüstana hərbi müdaxiləsi AFR-in bu optimist strateji çərçivəsinin geosiyasi reallıqlardan nə qədər uzaq olduğunu nümayiş etdirdi. Gürcüstan müharibəsi, Rusiyanın Qərblə əlaqələri kəsməyə qərar verdiyinə dair ilk aşkar göstərici idi. Bu hadisə həm də sübut etdi ki, Rusiya texnoloji modernləşmədən başqa, Almaniyanın onun üçün açıq gördüyü "tarixi baxımdan unikal transformasiya prosesi" ilə maraqlanmır (Steinmeier, 2008). 2008-ci ilin avqustunda baş vermiş Gürcüstan müharibəsi, Almaniyanın "Böyük Koalisiya" hökuməti daxilində Rusiya ilə bağlı yanaşma fərqlərini aydın şəkildə üzə çıxardı. Kansler Angela Merkel Rusiyanın hərbi müdaxiləsini rəsmən "qeyri-mütənasib" (unverhältnismäßig) addım kimi xarakterizə edərək Rusiyanı kəskin tənqid etdiyi halda, xarici işlər naziri F. V. Ştaynmayer daha ehtiyatlı mövqe nümayiş etdirirdi (Deutsche Welle, 2008). Bu ehtiyatlı yanaşmanın arxasında Ştaynmayerin müharibədən dərhal əvvəl apardığı və nəticəsiz qalan diplomatik vasitəçilik missiyası dayanırdı. Berlinin münaqişənin qarşısını almaq üçün göstərdiyi bu uğursuz diplomatik səy, əslində Almaniya diplomatiyasının Rusiya qarşısında təsir imkanlarının məhdudluğunu göstərən mühüm bir siqnal idi. Bu hadisə həm də sübut edir ki, 2008-ci il böhranı zamanı Almaniya rəhbərliyi Rusiyanın hərbi aqressiyası ilə illərdir qurulan "strateji tərəfdaşlıq" xətti arasında dərin bir dilemmanın içində qalmışdı.

**Almaniyanın Rusiya siyasəti (2008–2012): Merkel və Medvedev dövrü**

Dmitri Medvedevin prezidentliyi illəri (2008–2012) Alman–Rusiya əlaqələrində "müvəqqəti yumşalma" dövrü kimi xarakterizə olunur. Bu mərhələdə Almaniyanın liberal xarici işlər naziri Qido Vestervelle Rusiya ilə münasibətləri klassik iqtisadi ticarət çərçivəsindən çıxararaq, onu daha geniş spektrli "strateji tərəfdaşlıq" səviyyəsinə qaldırmağa cəhd göstərmişdir. Q. Vestervellenin 2009-cu il Moskva bəyanatları Almaniyanın Rusiya ilə əməkdaşlıqda heç bir ilkin şərt irəli sürmədən tam inteqrasiyaya hazır olduğunu nümayiş etdirirdi (Deutsche Welle, 2009). Lakin müəlliflər vurğulayırlar ki, Vestervellenin siyasəti ikitərəfli xarakter daşıyırdı: o, bir tərəfdən strateji tərəfdaşlığı təşviq edir, digər tərəfdən isə liberal dəyərlərə sadiq qalaraq Rusiya daxilindəki insan haqları və azlıqların hüquqları məsələsini gündəmdə saxlayırdı. Bu yanaşma, Merkel–Vestervelle hökumətinin Rusiya ilə münasibətlərdə həm praqmatik maraqları, həm də normativ dəyərləri eyni vaxtda yürütmək cəhdinin bariz nümunəsidir (Larres et al., 2022).

2010-cu il Mezeberq Təşəbbüsü Almaniya xarici siyasətində kanslerlik səviyyəsində idarə olunan strateji bir dönüş nöqtəsidir. Bu təşəbbüs Berlinin Avropa təhlükəsizlik memarlığında ABŞ və NATO-nu müəyyən dərəcədə kənarda qoyaraq, Rusiya ilə birbaşa və qarşılıqlı mübadiləyə əsaslanan münasibət qurma cəhdi kimi xarakterizə olunur (Fix, 2021). Almaniya, Dnestryanı münaqişəsinin həlli müqabilində Rusiyaya Aİ səviyyəsində institusional təhlükəsizlik imtiyazları təklif etməklə, Moskvanı Avropa nizamına konstruktiv tərəfdaş kimi yenidən cəlb etməyə çalışırdı. Mezeberq memorandumu Almaniyanın Aİ daxilindəki "özünəinamlı" (self-confident) və "geosiyasi" liderliyinin nümunəsidir. Çünki Berlin bu sənədi digər üzv dövlətlərlə və Aİ təsisatları ilə əvvəlcədən rəsmi məsləhətləşmələr aparmadan imzalamışdı. Bu "gizli diplomatiya" üslubu xüsusilə Şərqi Avropa ölkələrində AFR-in Rusiyanın maraqlarını bütün ittifaqın maraqlarından üstün tutması şübhəsini gücləndirmiş və Aİ daxilində ciddi narazılıqlara səbəb olmuşdur. Beləliklə, Mezeberq sübut edir ki, Merkel hökuməti müəyyən mərhələdə Rusiya ilə münasibətləri normallaşdırmaq üçün ənənəvi çoxtərəfli formatlardan kənara çıxan, xalis "Realpolitik" prinsiplərinə söykənən müstəqil bir xətt izləməyə hazır idi (Fix, 2021).

2008-ci ildə Dmitri Medvedev Avropa üçün yeni təhlükəsizlik arxitekturası təklifi etmişdir. Medvedevin bu təklifi "Vankuverdən Vladivostoka qədər" vahid təhlükəsizlik məkanı yaratmağı hədəfləyirdi. Təklifin əsas sütunu "Təhlükəsizliyin bölünməzliyi" (неделимость безопасности) prinsipi idi, yəni heç bir dövlət və ya ittifaq (məsələn, NATO) başqasının təhlükəsizliyi hesabına öz təhlükəsizliyini gücləndirə bilməz. Bu təşəbbüs Qərbdə NATO-nun genişlənməsinə qarşı bir "veto

hüququ" cəhdi kimi qiymətləndirildiyi üçün geniş dəstək tapmadı. Sənədin 1-ci maddəsində yer alan "heç bir dövlət və ya beynəlxalq təşkilat digərlərinin təhlükəsizliyi hesabına öz təhlükəsizliyini təmin edə bilməz" müddəası Rusiyanın NATO-nun genişlənməsini hüquqi cəhətdən məhdudlaşdırmaq cəhdi idi. Bu təşəbbüs Yeltsin və Putin dövründə xarici siyasətə xas olan parçalanmış, situativ qərarlar əvəzinə, Rusiyanın Avropa və Avro-Atlantik təhlükəsizliyi haqqında öz konseptual baxışını təqdim etmə cəhdi idi (Prezident Rossii, 2009).

A. Merkel 2009-cu il noyabrın 10-da Bundestaqda çıxışı zamanı Avropanın təhlükəsizliyi və Rusiya məsələsinə toxunaraq, Avropa təhlükəsizliyinin Rusiyasız mümkün olmadığını vurğulamış və Rusiya ilə qarşıdurma deyil, "dialoq və əməkdaşlıq" əsasında münasibətlərin qurulmasının tərəfdarı kimi çıxış etmişdir. A. Merkelə görə, Rusiya nə qədər çətin tərəfdaş olsa da, Avropanın təhlükəsizlik arxitekturasında nəzərə alınmalı və proseslərdən kənarda qoyulmamalıdır. "Biz Rusiya ilə nəinki ikitərəfli qaydada, həmçinin NATO–Rusiya Şurasında geniş təhlükəsizlik siyasəti dialoquna can atırıq. Rusiya və Avropa bir-birindən asılıdır" ifadələri diqqətəlayiqdir (Regierungserklärung von Bundeskanzlerin Angela Merkel vor dem Deutschen Bundestag, 2009).

Avro-Atlantika məkanında təhlükəsizliyin bölünməzliyi prinsipinə və D. Medvedevin irəli sürdüyü "Yeni Avropa Təhlükəsizlik Arxitekturası" ideyasına cavab olaraq, 2010-cu il 31 may tarixində Almaniyanın Meseberq qəsrində keçirilən A. Merkel–D. Medvedev görüşü nəticəsində "Meseberq təşəbbüsü" formalaşdırıldı. A. Merkel və D. Medvedevin birgə razılığı əsasında hazırlanan bu sənədin əsas məqsədi Rusiya ilə Avropa İttifaqı arasında təhlükəsizlik və xarici siyasət sahəsində davamlı, institusional dialoq mexanizmi yaratmaq idi. Bu təşəbbüs Rusiyanın təhlükəsizlik məsələləri üzrə dialoqunun yalnız NATO ilə məhdudlaşmamasını, həm də Aİ–Rusiya xəttində ayrıca bir çərçivədə inkişaf etməsini nəzərdə tuturdu. Sənədin digər mühüm hədəfi münaqişələrin qarşısının alınması sahəsində əməkdaşlığı gücləndirmək və xüsusilə 2008-ci il Gürcüstan müharibəsindən sonra yaranmış qarşılıqlı etimadsızlığı azaltmaq idi. Ümumilikdə Meseberq təşəbbüsü, 2010-cu ildə Almaniyanın Rusiyanı Avropanın təhlükəsizlik quruluşuna institusional səviyyədə daha sıx şəkildə daxil etmək cəhdi idi. Bununla belə, təşəbbüsün reallaşmasına geosiyasi maneələr və Aİ daxilindəki fikir ayrılıqları – xüsusilə Polşa və Baltikyanı ölkələrin kəskin etirazları – imkan vermədi. Buna baxmayaraq, Meseberq sənədi Merkel dövründə Almaniyanın Rusiyayla konstruktiv təhlükəsizlik əməkdaşlığı qurmaq niyyətinin simvolik ifadəsi kimi yadda qaldı (Memorandum from the meeting of Chancellor Angela Merkel and President Dmitry Medvedev on 4–5 June 2010 in Meseberg, 2010). Polşa və Baltikyanı

ölkələrin etirazını qeyd etmək də vacibdir. Onlar bunu Berlin və Moskvanın kiçik ölkələrin başı üzərindən razılaşması kimi qəbul edirdilər.

Aİ–Rusiya Modernləşmə Tərəfdaşlığı, Rusiya–Gürcüstan müharibəsindən cəmi bir il sonra, 2009-cu ilin noyabrında Stokholm Sammitində təklif edildi. Bu təşəbbüs nəhayət 1 iyun 2010-cu ildə Rostov-na-Donu sammitində yekunlaşdırıldı. "Modernləşmə Tərəfdaşlığı üzrə Aİ–Rusiya Birgə Bəyanatı"nda qeyd olunduğu kimi, təşəbbüsün arxasında duran ideya, yeni Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi üzrə danışıqların illərdir dalana dirənməsi fonunda Aİ–Rusiya münasibətlərinə yeni nəfəs vermək idi. Liana Fiksin tədqiqatına əsasən, 2010-cu ildə Rostov-na-Donu sammitində rəsmiləşən "Aİ–Rusiya Modernləşmə Tərəfdaşlığı" Almaniyanın Aİ daxilindəki güclü "gündəlik müəyyənetmə" (agenda-setting) rolunun ən bariz təzahürüdür. Bu təşəbbüs əslində 2008-ci ildə Almaniya XİN başçısı F. V. Ştaynmayer tərəfindən irəli sürülmüş ikitərəfli əməkdaşlıq modelinin Avropa müstəvisinə uğurlu transferi idi. Berlinin bu diplomatik manevri, o dövrdə Brüsselin "Şərq Tərəfdaşlığı" layihəsinə həddən artıq fokuslanması nəticəsində yaranmış Rusiya siyasəti boşluğunu doldurmaq məqsədi daşıyırdı. Müəllif vurğulayır ki, bu tərəfdaşlıq Rusiyanın öz sistemini Qərb standartlarına uyğun modernləşdirməyə hazır olduğu barədə nikbin fərziyyəyə əsaslanırdı. Almaniyanın təsir gücü o dərəcədə həlledici olmuşdur ki, ilkin mərhələdə bu paradiqmaya ciddi skeptisizmlə yanaşan Şərqi Avropa ölkələri, o cümlədən Polşa belə sonda bu layihəyə qoşulmuşdur. Nəticə etibarilə, Almaniyanın irəli sürdüyü model cəmi bir neçə il ərzində 22 üzv dövlət tərəfindən qəbul edilərək, Almaniyanın milli xarici siyasət prioritetlərinin bütün Avropa İttifaqının kollektiv strateji xəttinə çevrilməsini təmin etmişdir (Fix, 2021).

Liana Fiksin təhlilinə əsasən, 2007-ci il Almaniyanın Aİ Şurasına sədrliyi dövrü Berlinin post-sovet məkanına dair vahid və üçşaxəli strategiyasının rəsmiləşdiyi kritik mərhələdir. Alman diplomatları bu dövrdə regionu üç fərqli geosiyasi blok üzrə bölərək hər biri üçün spesifik alətlər hazırlamışdılar: Şərqi Avropa üçün "Şərq Tərəfdaşlığı"na yol açan ENP+ modeli, Mərkəzi Asiya üçün xüsusi regional strategiya və Rusiya üçün isə "Yaxınlaşma vasitəsilə dəyişiklik" (Wandel durch Annäherung) doktrinasının müasir variantı olan "Qarşılıqlı asılılıq vasitəsilə yaxınlaşma" (Annäherung durch Verflechtung) konsepsiyası. AFR-in Rusiya ilə qurduğu "Modernləşmə Tərəfdaşlığı" əslində klassik alman Şərq Siyasətinin strateji varisidir. Bu layihə 2008-ci ildə Rusiyada Dmitri Medvedevin hakimiyyətə gəlişi ilə yaranan müvəqqəti "liberal islahat" illüziyasından və modernləşmə ritorikasından bacarıqla istifadə edərək, Rusiyanı iqtisadi və institusional zəncirlərlə Avropaya daha sıx bağlamağı

hədəfləyirdi. Beləliklə, Almaniya öz milli xarici siyasət fəlsəfəsini regional reallıqlara uyğunlaşdıraraq bütün Aİ-nin Şərq vektorunu müəyyən edən əsas güc mərkəzi kimi çıxış etmişdir (Fix, 2021).

Merkel federal kansler olduqda Almaniyanın Rusiya siyasətinin çox dəyişməməsinin səbəblərindən biri xarici işlər nazirliyinin Sosial Demokratlar tərəfindən tutulması idi. Xarici işlər naziri Frank-Valter Ştaynmayer Şröderin etibarlı adamı və əməkdaşlıq mərkəzli "Şərq siyasəti"nin sadiq tərəfdarı kimi tanınırdı. Ştaynmayer Merkeli Rusiya siyasətinə görə açıq şəkildə tənqid edir, onu daxili rəyə çox oynamaqda və Rusiyanı təcrid etməyə cəhd göstərməkdə günahlandırırdı. Merkel ilə müqayisədə Ştaynmayer, həmçinin raketdən müdafiə sistemlərinin Rusiya və Avropa təhlükəsizliyi üçün yarada biləcəyi mənfi nəticələrdən daha çox narahat idi. 2009–2013-cü illəri əhatə edən "Böyük Koalisiya"dan sonrakı (CDU/CSU–FDP) hökumət dövründə Almaniya XİN-in Rusiya kursu daha çox "aşağı profil" nümayiş etdirməsi ilə xarakterizə olunurdu. AFR XİN Qido Vestervelle liberal ideologiyaya uyğun olaraq "ticarət vasitəsilə dəyişiklik" (Wandel durch Handel) konsepsiyasını davam etdirsə də, onun fəaliyyəti sistemli bir doktrinanın olmaması səbəbindən akademik və siyasi dairələrdə tənqidlərə məruz qalırdı. Q. Vestervelle Almaniya bir tərəfdən Rusiyanın qlobal idarəçiliyə inteqrasiyasını təşviq edir, digər tərəfdən isə Rusiyanın Yaxın Şərqdəki, xüsusən Suriyadakı fəaliyyətlərini tənqid edərək Rusiya ilə münasibətlərdə müəyyən bir "tənqidi dialoq" balansı yaratmağa çalışırdı. Bu dövr Almaniyanın Rusiya siyasətində kəskin paradiqma dəyişikliklərindən daha çox, mövcud iqtisadi asılılıq xəttinin qorunması və dəyərlər mərkəzli ritorikanın artması ilə yadda qalmışdır (Forsberg, 2016).

Sabina Fişerin təhlilinə görə, 2012-ci ildə Vladimir Putinin yenidən Rusiya prezidentliyinə qayıtması Almaniyanın onilliklər boyu yürütdüyü Rusiya siyasətində fundamental bir sarsıntıya səbəb olmuşdur. Həmin dövrdə XİN rəhbəri Qido Vestervelle hələ də iqtisadi modernləşmənin mütləq şəkildə sosial-siyasi islahatlara gətirib çıxaracağı fərziyyəsini müdafiə etsə də, Rusiyada vətəndaş cəmiyyətinə, o cümlədən Almaniyanın siyasi fondlarına qarşı başlayan sərt repressiyalar bu nəzəriyyəni iflasa uğratdı. Fişer vurğulayır ki, məhz 2012-ci il hadisələri Berlin üçün əsl "dönüş nöqtəsi" idi; çünki bu mərhələdə alman diplomatları və qərarvericiləri Rusiya ilə "dəyərlər mərkəzli yaxınlaşmanın" mümkünlüyünə dair bəslədikləri strateji illüziyadan əl çəkməyə məcbur oldular (Fischer, 2020).

Angela Merkelin rəhbərliyi altında 2013-cü il federal seçkilərinin nəticəsi kimi Xristian Demokratlar və Sosial Demokratların iştirakı ilə ikinci "Böyük Koalisiya" formalaşdırıldı və Frank-Valter Ştaynmayer yenidən xarici işlər naziri təyin edildi. O, Rusiya ilə əlaqələri stabilləşdirmək,

"Modernləşmə Tərəfdaşlığı"nı bərpa etmək və əvvəllər Şröderin təklif etdiyi "strateji tərəfdaşlıq" modelini real müstəviyə daşımaq üçün addımlar atdı. Bu kursun tərkib hissəsi kimi, Rusiya üzrə xüsusi nümayəndə vəzifəsində Andreas Şokkenhoffu Moskvaya və Putinə daha rəğbət bəsləyən SPD nümayəndəsi Qernot Erler əvəzlədi. Lakin XDİ–XSİ–ADP koalisiyasının sonlarında Q. Vestervellenin Kiyevə səfər edərək Ukraynanın Aİ ilə sazişini dəstəkləməsindən sonra, Rusiyanın Ukraynaya müdaxiləsi və Krımın ilhaqı proseslərin kəskin mənfiyə doğru dəyişməsinə səbəb oldu. Xarici İşlər Nazirliyinə qayıdan Ştaynmayer fransız həmkarı ilə birgə Yanukoviç hökuməti ilə sazişin əldə olunmasında fəal vasitəçilik etsə də, Ukrayna prezidentinin ölkəni tərk etməsi ilə bu razılaşma qısa müddətdə qüvvəsini itirdi (Larres et al., 2022).

2013-cü ilin dekabrında Angela Merkelin rəhbərliyi ilə qurulan növbəti "Böyük Koalisiya"nın proqram sənədi olan AFR-in Rusiya ilə münasibətlərində onilliklər boyu davam edən "Yaxınlaşma vasitəsilə dəyişiklik" (Wandel durch Annäherung) fəlsəfəsinin sonuncu rəsmi təzahürü kimi qiymətləndirilməlidir. Sənəddə Rusiyanın Avropa İttifaqının ən böyük və mühüm qonşusu kimi tanınması, Almaniyanın xarici siyasətində Rusiyanın mərkəzi rolunu bir daha təsbit edirdi. Əvvəlki dövrlərdən fərqli olaraq, 2013-cü il müqaviləsi modernləşmə tərəfdaşlığını təkcə dövlətlərarası iqtisadi layihələrlə məhdudlaşdırmır, onu Rusiyanın vətəndaş cəmiyyəti və yeni orta təbəqəsi ilə birbaşa dialoqa yönəldirdi. Almaniya tərəfi viza rejiminin (xüsusilə alimlər, tələbələr və sahibkarlar üçün) liberallaşdırılması və "Peterburq Dialoqu"nun inkişafı vasitəsilə Rusiyanın daxili transformasını sosial səviyyədə dəstəkləməyi hədəfləyirdi. Bu, AFR-in Rusiyanı "yumşaq güc" və insani təmaslar vasitəsilə Avropa dəyərlərinə yaxınlaşdırmaq cəhdi idi. Sənəddə əks olunan "Təhlükəsizlik yalnız Rusiya ilə birlikdə, ona qarşı deyil" (Sicherheit nur mit und nicht gegen Russland) ideyası, Almaniyanın regional münaqişələrin (xüsusilə Dnestryanı məsələsinin) həllində Rusiyanın konstruktiv iştirakına olan sarsılmaz inamını göstərirdi. Lakin eyni zamanda, Polşa və Baltikyanı ölkələrin qanuni mənafelərinin nəzərə alınması şərti, AFR-in ikitərəfli münasibətlərdə Avropa birliyini və transatlantik həmrəyliyi qurban verməyəcəyinə dair bir xəbərdarlıq idi. Koalisiya müqaviləsi Rusiyadan beynəlxalq standartlara (ÜTT və demokratik hüquqi normalar) riayət etməyi tələb etməklə, münasibətlərin artıq sadəcə "enerji alveri" üzərində deyil, müəyyən bir hüquqi çərçivə daxilində inkişaf etməsini istəyirdi. Almaniya tərəfi bu məqsədlə ölkə daxilində Şərqi Avropa və Rusiya üzrə elmi-analitik ekspertizanı gücləndirməyi və Rusiya siyasətində Aİ daxilində daha ardıcıl mövqe formalaşdırmağı strateji prioritet kimi müəyyən etmişdi (CDU, CSU, & SPD, 2013).

**Krımın ilhaqına Almaniyanın reaksiyası**

2014-cü il Ukrayna böhranı Almaniyanın Avropa təhlükəsizlik memarlığındakı statusunu əsaslı şəkildə dəyişərək, onu diplomatik həll prosesinin əsas moderatoruna çevirdi. Berlinin bu liderliyi həm regiona coğrafi yaxınlığı, həm də Ukraynadakı strateji payı ilə şərtləndirilirdi (Fix, 2018). Rusiyayla olan geo-iqtisadi münasibətlərinə əlavə olaraq, onun Rusiya siyasəti belə bir geosiyasi fakta əsaslanırdı: nisbətən gözlənilməz rəhbərliyi, şübhəli daxili sabitliyi və Qərbə qarşı düşmənçilik tarixi olan bir nüvə dövləti kimi Rusiya yenidən Almaniya üçün təhlükəyə çevrilə bilər (Speck, 2016). Digər tərəfdən, NATO və Aİ-nin genişlənməsi nəticəsində Almaniyanın Rusiya ilə birbaşa sərhədinin olmaması və "bufer zona"da yeni müttəfiqlər qazanması onun manevr imkanlarını artırmışdı. Ən mühüm dönüş nöqtəsi isə Almaniyanın illərdir rəhbər tutduğu "Rusiyanın Qərbə inteqrasiya istəyi" fərziyyəsinin iflasa uğraması oldu. Krımın ilhaqı Almaniyanın Rusiya ilə münasibətlərdəki fundamental "inteqrasiya və tərəfdaşlıq" paradiqmasının sonunu gətirdi və onu daha realist, təhlükəsizlik mərkəzli bir siyasət yürütməyə sövq etdi.

2014-cü ildə Krımın Rusiya tərəfindən qanunsuz ilhaq edilməsi Avropanın müasir təhlükəsizlik arxitekturasında həlledici bir sınaq nöqtəsi oldu. Beynəlxalq birliyin və BMT Baş Assambleyasının sərt qətnamələrinə baxmayaraq, Qərbin, xüsusilə də Almaniyanın nümayiş etdirdiyi praktiki reaksiya Kremlin aqressiyasını dayandırmaq üçün yetərli olmadı. AFR-in diplomatik kanalları açıq saxlamaq doktrinası çərçivəsində ciddi iqtisadi sanksiyalardan və strateji təzyiqlərdən yayınması, əslində Moskvanın hərbi ekspansiyasına verilmiş dolayısı bir icazə kimi qəbul edildi. Frank-Valter Ştaynmayerin rəhbərlik etdiyi xarici siyasət kursu, ciddi nəticələr doğurmayan mənəvi narazılıqlarla kifayətlənərək, Putinin imperiya ambisiyalarını növbəti mərhələyə keçirməsinə şərait yaratdı. Bu dövrün ən təhlükəli cəhəti Almaniya ictimai rəyində və siyasi elitasında "Rusiya kompleksi"nin (Russland-Komplex) özünü büruzə verməsi idi. Müxtəlif siyasi spektrlərdən olan nüfuzlu simaların – radikal sağçı Qaulanddan tutmuş, sosial-demokrat Şröder və hətta mühafizəkar dövlət xadimi Helmut Şmidtə qədər – Putinin "rus torpaqlarını toplamaq" iddiasına intellektual bəraət qazandırmağa çalışması AFR-in strateji korluğunun dərinliyini göstərirdi. "Russki Mir" mifi üzərində qurulan bu psevdo-tarixi narrativlər, əslində Rusiyanın orta əsrlərdən bəri tətbiq etdiyi işğalçı siyasətin müasir qəlibi idi. Alman ziyalılarının bu mifi mənimsəməsi Putinin təbliğat maşınına beynəlxalq legitimlik qazandırdı. Strateji nöqteyi-nəzərdən Krımın işğalı 2008-ci il Buxarest sammitində buraxılmış səhvin məntiqi davamı idi. Almaniyanın Ukraynanın NATO-ya inteqrasiyasına qoyduğu veto, Rusiyanın bu

ölkəni öz "nüfuz dairəsi" və hərbi poliqonu kimi görməsini rəsmiləşdirdi. Tarixi təhlillər göstərir ki, 2008-ci ildəki qətiyyətsizlik olmasaydı, nə 2014-cü il ilhaqı, nə də 2022-ci il irimiqyaslı işğalı mümkün olardı. Beləliklə, Krımın taleyi Berlinin illərlə apardığı "sakitləşdirmə" siyasətinin acı və qaçılmaz nəticəsi kimi tarixə düşdü (Himmelreich, 2024).

Angela Merkel, Vladimir Putinlə digər dünya liderləri ilə müqayisədə daha çox danışıqlar apardığı kimi, Ştaynmayer də Lavrovla intensiv təmasda olmuşdur. Merkel öz strateji fəaliyyətində Avropa birliyini mərkəzi amil hesab edirdi; burada Fransa başlıca tərəfdaş, ABŞ isə arxa plandakı dəstəkçi funksiyasını yerinə yetirirdi. Merkel və Obama hərbi müdaxiləni istisna edərək, sanksiyaları diplomatiya və Ukraynaya dəstək mexanizmləri ilə əlaqələndirməyi əsas vasitə kimi seçdilər. O, nəinki Aİ daxilində sanksiyalarla bağlı həmrəyliyə nail oldu, həm də kanslerliyi boyunca bu rejimin sabit qalmasını təmin etdi. Onun Putinlə apardığı diplomatik proseslər münaqişəni tam həll etməsə də, vəziyyəti sabitləşdirən "Minsk II" razılaşmasının imzalanması ilə nəticələndi. Merkel Rusiya ilə münasibətlərdə balansı qorumağa çalışaraq, 2015-ci ildə Moskvadakı rəsmi ildönümü mərasimlərinə qatılmaqdan imtina etsə də, növbəti gün rus əsgərlərinin məzarlarını ziyarət edərək anım mərasimində iştirak etdi (Larres et al., 2022).

**Merkel dövründə Almaniyanın Rusiyaya dair siyasətinin tənəzzülü və yeni çağırışlar (2017–2021)**

2017-ci ilin mayında Kansler Angela Merkelin Soçi səfəri Almaniya–Rusiya münasibətlərində "soyuq sülh" dövrünün ən gərgin mərhələlərindən birinə təsadüf edirdi. Bu görüş, Ukrayna böhranı və Suriya müharibəsi fonunda tərəflər arasında diplomatik uçurumun dərinləşdiyini, lakin dialoqun tamamilə kəsilmədiyini nümayiş etdirirdi. Merkel bu səfərlə göstərdi ki, Almaniya Minsk razılaşmalarının icrası məsələsində Rusiyaya təzyiq etməkdə davam edir, lakin eyni zamanda qlobal təhlükəsizlik məsələlərində, məsələn, terrorizmlə mübarizədə, Rusiyanın rolunu inkar etmir (Knipp, 2017). Soçi görüşü Merkelin realist diplomatiyasının nümunəsi idi: o, insan haqları və Ukraynanın ərazi bütövlüyü məsələsində prinsipial mövqeyindən geri çəkilməyərək, gərginliyi azaltmaq üçün birbaşa təmas xəttini açıq saxlayırdı.

2017-ci il Bundestaq seçkilərindən sonra A. Merkelin rəhbərliyi altında yeni bir "Böyük Koalisiya" yarandı, lakin bu dəfə xarici işlər naziri postunda əvvəlcə 2018-ci ilin əvvəlinə qədər Ziqmar Qabriel, daha sonra isə hər ikisi SPD-dən olan Hayko Maas təmsil olundu. Partiyanın öz "Şərq Siyasəti" irsinə sadiq qalmağa davam etməsinə baxmayaraq, Rusiya ilə münasibətlər pisləşməkdə davam edirdi.

Xarici işlər naziri Maas 2018-ci ilin noyabrında Rusiyadan getdikcə artan məyusluğu əks etdirən yeni bir "Şərq Siyasəti" elan etdi: "Bizə həmçinin yeni bir Ostpolitik, yəni Vaşinqton və Moskva arasındakı təhlükəli sükutu nəzərə alaraq, sadəcə Rusiyanın seçdikləri ilə deyil, bütün Avropa ölkələrinin maraqları naminə Rusiya ilə əməkdaşlığın yeni yollarını göstərən bir Avropa Ostpolitik-i lazımdır. Bu yeni Ostpolitik həm də Gürcüstan və Ukrayna kimi Şərq Tərəfdaşlığı ölkələrinə əl uzatmalıdır, hansı ki, onlar düşüncə və hissiyat baxımından bir çox cəhətdən bizim qədər Avropalıdırlar. Bu, həm Baltikyanı dövlətlərin və Polşanın, həm də qərb ölkələrinin, yəni bütün avropalıların ehtiyaclarını nəzərə almalıdır (Maas, 2018).

Almaniya xarici siyasətində uzun illər davam edən "Atlantizm" və "Ostpolitik" arasındakı balans Heiko Maasın xarici işlər naziri təyin olunması ilə yeni bir mərhələyə qədəm qoymuşdur. Ulrix Spek qeyd edir ki, G. Şröder, F. V. Ştaynmayer və S. Qabriel kimi SDP-li sələflərindən fərqli olaraq, H. Maas Rusiyaya qarşı nümayiş etdirilən "körpülərin qorunması" ritorikasından imtina etmişdir. Onun irəli sürdüyü "Yeni Şərq Siyasəti" (New Ostpolitik) konsepsiyasının mərkəzində artıq təkcə Rusiya deyil, Mərkəzi və Şərqi Avropa ölkələrinin (Polşa, Baltikyanı ölkələr) təhlükəsizlik qayğıları dayanır (Speck, 2018).

2017-ci il seçkilərindən sonra Angela Merkelin başçılığı ilə qurulan yeni "Böyük Koalisiya"da xarici işlər naziri vəzifəsini ardıcıl olaraq SDP təmsilçiləri Ziqmar Qabriel və Hayko Maas icra etdilər. H. Maas partiya daxilində tənqidlərlə üzləşdi; belə ki, Rolf Mützenix və Mattias Platsek kimi liderlər 2021-ci il seçkiləri öncəsi partiyanı sol cinahda mövqeləndirmək üçün ABŞ nüvə silahlarının Almaniyadan çıxarılmasını və Rusiya ilə daha yumşaq münasibətləri nəzərdə tutan fərqli bir "Şərq Siyasəti" təklif edirdilər (Dettke, 2020). Ulrix Spekin qeyd etdiyi kimi, Soyuq müharibə dövründə Şərq siyasəti Şərqdə siyasi dəyişiklik etməyə yönəlmişdi və Rusiya ilə yanaşı, Mərkəzi Avropaya da eyni dərəcədə hədəflənmişdi; bu gün isə bu termin çox vaxt Kreml ilə yaxşı münasibətlərin qısaldılmış ifadəsinə çevrilib (Speck, 2018). Bu mövqe hazırda Polşa və Baltikyanı dövlətləri, eləcə də ABŞ-ı Berlindən uzaqlaşdırır. Maasın bildirdiyi kimi, "əgər Rusiya özünü getdikcə daha çox Qərbdən fərqli, hətta ona zidd şəkildə müəyyən edirsə, bu, xarici siyasətimizin reallığını dəyişir" (Speck, 2018).

Eyni dövrdə Merkel, SPD-li nazirlərin və Şröderin yetirməsi sayılan Ziqmar Qabrielin təzyiqi ilə "Şimal Axını 2" layihəsinin icrasına icazə verdi. Bu proses ABŞ-ın dəstəyinin azaldığı və Donald Trampın prezidentliyi dövrünə təsadüf edirdi. Merkel, Aleksey Navalnının zəhərlənməsi və həbsi ilə bağlı sərt diplomatik reaksiya versə də, boru kəməri layihəsini dayandırmadı. O, geo-iqtisadi yanaşmaya

sadiq qalaraq kommersiya maraqlarını strateji maraqlardan ayırmağa çalışdı, lakin bu layihə həm Tramp, həm də Bayden administrasiyaları ilə münasibətlərdə ciddi fikir ayrılıqlarına yol açdı.

**Almaniyanın Rusiya siyasəti siyasi partiya sənədlərində**

2009-cu il Koalisiya Müqaviləsi Almaniyanın Rusiya siyasətində ikitərəfli münasibətlər çərçivəsindən çıxaraq, Moskvanı qlobal idarəçiliyin zəruri elementi kimi qəbul etdiyini təsdiqləyir. AFR bu dövrdə Rusiyanı təkcə enerji tədarükçüsü deyil, həm də Əfqanıstan, İran nüvə proqramı və beynəlxalq terrorizm kimi kritik təhlükəsizlik məsələlərində "əvəzedilməz tərəfdaş" statusunda görürdü (CDU/CSU-FDP, 2009). Sənəddə diqqətçəkən məqam ondan ibarətdir ki, Almaniya hökuməti Rusiyanı iqlim dəyişikliyi və qlobal səhiyyə kimi qeyri-ənənəvi təhlükəsizlik sahələrində də strateji müttəfiq kimi qeyd edirdi. Bu yanaşma, Merkel–Vestervelle hökumətinin Rusiyanın beynəlxalq sistemə inteqrasiyasını Almaniyanın və Avropanın qlobal maraqlarının təmin edilməsi üçün əsas şərt hesab etdiyini nümayiş etdirir.

2013-cü ildə Almaniyada SDP ilə XDİ–XSİ arasında bağlanmış koalisiya müqaviləsində Rusiya ilə münasibətlərə dair xüsusi vurğular yer alır. 2013-cü il koalisiya müqaviləsində Rusiyaya münasibət ikili yanaşma ilə xarakterizə olunurdu. Bir tərəfdən Rusiya "strateji tərəfdaş" kimi təqdim olunur, enerji, ticarət və təhlükəsizlik sahələrində əməkdaşlıq təşviq edilir. Digər tərəfdən isə insan hüquqları, vətəndaş cəmiyyəti və hüququn aliliyi sahələrində tənqidlər və narahatlıqlar ifadə olunurdu. Sənəddə Almaniyanın Aİ daxilində daha koordinasiyalı və ardıcıl Rusiya siyasətinə ehtiyac olduğunu bildirməsi, o dövrdə Aİ-nin Rusiya ilə bağlı parçalanmış mövqelərinin fonunda Almaniyanın liderlik iddiasını nümayiş etdirir. Bununla yanaşı, üçtərəfli Almaniya–Polşa–Rusiya dialoqunun vacibliyi, regional tarazlığa və Şərqi Avropada sabitliyə töhfə vermək məqsədini ortaya qoyur. Ən diqqətəlayiq strateji tezis isə "Avropada təhlükəsizlik Rusiyaya qarşı deyil, yalnız Rusiya ilə birlikdə mümkündür" ifadəsi idi. Bu fikir Almaniyanın Rusiya ilə qarşıdurmanı deyil, qarşılıqlı təhlükəsizlik arxitekturasını müdafiə etdiyini göstərir (CDU, CSU, & SPD, 2013).

2016-cı ilin noyabrında Almaniyanın ən böyük siyasi bloku olan XDİ–XSİ tərəfindən qəbul edilmiş qətnamə Rusiya ilə münasibətlərdə "strateji tərəfdaşlıq" dövrünü rəsmən qapatdığını və "təhlükəsizlik xəbərdarlığı" mərhələsinə keçdiyini nümayiş etdirir. Sənəddəki 10 maddənin mahiyyəti AFR-in Rusiyanı artıq "sabitlik tərəfdaşı" deyil, "sistemli təhdid" kimi xarakterizə etdiyini göstərir: Geosiyasi təcavüz və beynəlxalq hüququn inkarı: Fraksiya vurğulayır ki, Rusiya Krımın ilhaqı və Donbassdakı müdaxilə ilə İkinci Dünya Müharibəsindən sonra formalaşmış Avropa təhlükəsizlik

nizamını (Paris Xartiyası, BMT Nizamnaməsi, Budapeşt Memorandumu) kökündən sarsıtmışdır. Bu hərəkətlər suveren dövlətlərin ərazi bütövlüyünə qarşı birbaşa hücum kimi qiymətləndirilir. "Russki Mir" və revizionizm: Sənəddə Rusiyanın "Russki Mir" (Rus Dünyası) ideologiyası kəskin tənqid olunur. Berlin bu ideologiyanı sərhədlərin güc yolu ilə dəyişdirilməsi üçün təhlükəli bir bəhanə kimi görür. Rusiyanın keçmiş sovet məkanını öz "xüsusi maraq dairəsi" hesab etməsi Almaniya tərəfindən qətiyyətlə rədd edilir. Hibrid təhdidlər və Avropanın sabitliyinin pozulması: Alman mühafizəkarları Rusiyanı hibrid müharibə metodlarından (dezinformasiya, kiberhücumlar, sağ-populist partiyaların maliyyələşdirilməsi) istifadə edərək Qərb cəmiyyətlərini daxildən bölməyə çalışmaqda ittiham edirlər. Regional münaqişələrin alətə çevrilməsi: Maddələrdə Rusiyanın Cənubi Qafqazda (Dağlıq Qarabağ, Gürcüstan), Dnestryanıda və Suriyada münaqişələrin həllində maraqlı olmadığı, əksinə, öz geosiyasi nüfuzunu qorumaq üçün qeyri-sabitlik zonaları yaratdığı vurğulanır.

Daxili böhranın xarici siyasətə proyeksiyası: XDİ–XSİ-nin analizində göstərilir ki, Moskvanın anti-Qərb ritorikası əslində Rusiyanın daxili modernləşmə uğursuzluğunu, korrupsiya və iqtisadi geriliyi ört-basdır etmək üçün yaradılmış "süni düşmən" obrazıdır. Sənəd Rusiyanın iqtisadi zəifliyinin onu daha aqressiv və proqnozlaşdırılmaz etdiyi barədə xəbərdarlıq edir (CDU/CSU-Fraktion im Deutschen Bundestag, 2016).

2018-ci ildə Angela Merkelin dördüncü kanslerliyi dövründə XDİ–XSİ və SPD arasında bağlanan koalisiya sazişində Rusiyayla münasibətlər məsələsi daha geniş şəkildə əks olundu. 2018-ci il Koalisiya Müqaviləsi Almaniyanın Rusiya siyasətində "dialoq və çəkindirmə" arasındakı zərif balansı qorumaq cəhdini nümayiş etdirir. AFR bu sənədlə ilk dəfə olaraq Rusiyanın xarici və daxili siyasətində "əhəmiyyətli geriləmə" (Rückschritt) olduğunu rəsmən etiraf etmiş və Almaniyanın buna qarşı "dayanıqlılıq" (Resilienz) nümayiş etdirməli olduğunu vurğulamışdır. Sənəddə diqqətçəkən məqam budur ki, Almaniya hökuməti sanksiyaların ləğvini birbaşa Minsk razılaşmalarının icrası ilə şərtləndirmişdir. Lakin buna baxmayaraq, "Lissabondan Vladivostoka qədər ortaq iqtisadi məkan" kimi strateji hədəflərin saxlanılması, Almaniyanın hələ də Rusiyanı uzunmüddətli perspektivdə Avropanın ayrılmaz bir parçası kimi görmək istəyindən xəbər verirdi. Bu sənəd Merkel erasının sonuna yaxın Almaniya diplomatiyasının "prinsipial tənqid" və "iqtisadi praqmatizm" arasındakı mürəkkəb dilemmasını təsbit edir (CDU/CSU/SPD, 2018).

**Nəticə**

Angela Merkelin 16 illik kanslerlik dövrü Almaniyanın Rusiya siyasətində "strateji tərəfdaşlıq" ümidləri ilə "sistemli rəqabət" reallığı arasındakı kəskin keçidi əks etdirir. Tədqiqat göstərir ki, AFR-in bu illər ərzində apardığı kurs sadəcə ikitərəfli münasibətlər deyil, bütövlükdə Avropa təhlükəsizlik arxitekturasında bir tarazlıq axtarışı idi. Lakin bu axtarış Merkelin hakimiyyətinin sonunda Berlin üçün ciddi geosiyasi dilemmalarla nəticələndi. Məqalədə təhlil edilən faktlar əsasında aşağıdakı mühüm nəticələrə gələ bilərik:

**Paradiqma dəyişikliyi:** 2005-ci ildə Şröderdən miras qalan "ticarət vasitəsilə yaxınlaşma" (Wandel durch Handel) doktrinası Merkel dövrünün ilk yarısında "Modernləşmə tərəfdaşlığı" və "Meseberq təşəbbüsü" kimi iddialı layihələrlə davam etdirildi. Lakin 2014-cü il Krımın ilhaqı bu optimist yanaşmanı darmadağın edərək, Almaniyanı ilk dəfə Rusiyanı Avropa təhlükəsizliyinə təhdid kimi görməyə məcbur etdi.

**Diplomatik liderlik və sərhədlər:** Merkel Almaniyası Ukrayna böhranı zamanı "Minsk prosesi" vasitəsilə ABŞ və Rusiya arasında əsas vasitəçi rolunu öz üzərinə götürdü. Bu, Almaniyanın xarici siyasətində mühüm bir yetkinlik mərhələsi olsa da, Moskvanın hərbi revanşizmi qarşısında "yumşaq güc" və diplomatik manevrlərin hüdudlarını da üzə çıxardı.

**Daxili siyasi parçalanma:** Xüsusilə 2017-ci ildən sonra SPD daxilindəki ənənəvi "Şərq siyasəti" tərəfdarları ilə Hayko Maasın "realist-avropapərəst" xətti arasındakı ziddiyyətlər Almaniyanın vahid strateji mövqe sərgiləməsinə mane olmuşdur. Rolf Mützenix kimi fiqurların anti-nüvə və barışdırıcı çağırışları AFR-in Polşa, Baltikyanı ölkələr və ABŞ kimi müttəfiqləri ilə münasibətlərində etimad böhranı yaratmışdır.

**Geo-iqtisadiyyatın strateji məğlubiyyəti:** "Şimal Axını 2" layihəsi Merkel dövrünün ən ziddiyyətli irsi kimi qalmaqdadır. İqtisadi maraqları təhlükəsizlik maraqlarından ayırmaq cəhdi Almaniyanın enerji asılılığını dərinləşdirmiş və onu geosiyasi müstəvidə manevr imkanlarından məhrum etmişdir.

Yekun olaraq, 2005–2021-ci illər Almaniyanın Rusiya siyasətində "tərəfdaşlıq illüziyasından reallığa oyanış" dövrü kimi xarakterizə oluna bilər. Merkel diplomatiyası Avropada böyük müharibənin qarşısını illərlə almağa nail olsa da, Rusiyanı Avropa təhlükəsizlik sisteminə konstruktiv tərəfdaş kimi daxil etmək missiyasında uğursuzluğa düçar oldu. Bu uğursuzluq 2022-ci ildən sonra Almaniya xarici siyasətindəki fundamental dönüşün — "Zeitenwende"nin — təməl səbəbinə çevrildi.

**Author Contributions**

The author is solely responsible for the conceptualization, methodology, analysis, and writing of the study.

**Kaynaklar**

CDU/CSU. (2005a). *Gemeinsam für Deutschland – mit Mut und Menschlichkeit: Koalitionsvertrag zwischen CDU, CSU und SPD.*

CDU/CSU. (2005b). *Deutschlands Chancen nutzen: Wachstum. Arbeit. Sicherheit. Regierungsprogramm 2005–2009.*

CDU/CSU-FDP. (2009). *Koalitionsvertrag zwischen CDU, CSU und FDP: 17. Legislaturperiode.*

CDU/CSU-Fraktion. (2009). *Wir haben die Kraft: Gemeinsames Regierungsprogramm von CDU und CSU 2009–2013.*

CDU/CSU-Fraktion im Deutschen Bundestag. (2016). *Positionspapier: Für eine verlässliche und verantwortungsvolle Partnerschaft mit Russland.*

CDU/CSU/SPD. (2018). *Koalitionsvertrag: Ein neuer Aufbruch für Europa. Eine neue Dynamik für Deutschland. Ein neuer Zusammenhalt für unser Land.*

CDU, CSU, & SPD. (2013). *Deutschlands Zukunft gestalten: Koalitionsvertrag zwischen CDU, CSU und SPD (18. Legislaturperiode).* Bundesregierung.

Dettke, D. (2020, May 21). Returning to the past to win the future: The SPD in search of a long-term strategy. *American Institute for Contemporary German Studies.*

Deutsche Welle. (2008, August 15). Merkel says Russia's actions in Georgia "disproportionate."

Deutsche Welle. (2009, November 20). Westerwelle in Moscow.

Deutsche Welle. (2020, January 11). Merkel und Putin suchen gemeinsame Linie.

Fischer, S. (2020, September 22). What Russia doesn't get about Germany. *Carnegie Endowment for International Peace.*

Fix, L. (2018). The different shades of German power: Germany and EU foreign policy during the Ukraine conflict. *German Politics, 27*(4), 498–515. https://doi.org/10.1080/09644008.2018.1467995

Fix, L. (2021). *Germany's role in European Russia policy: A new German power?* Palgrave Macmillan.

Forsberg, T. (2016). From Ostpolitik to Frostpolitik? Merkel, Putin and German foreign policy toward Russia. *International Affairs, 92*(1), 21–42. https://doi.org/10.1111/1468-2346.12505

Himmelreich, J. (2024). *Die deutsche Russland-Illusion: Die Irrtümer unserer Russland-Politik und was daraus folgen sollte.* Quadriga.

Knipp, K. (2017, May 2). Merkel, Putin and Sochi. *Deutsche Welle.*

Larres, K., Moroff, H., & Wittlinger, R. (Eds.). (2022). *The Oxford handbook of German politics.* Oxford University Press.

Lough, J. (2021). *Germany's Russia problem: The struggle for balance in Europe.* Manchester University Press.

Maas, H. (2018, June 13). *Courage to stand up for Europe: #EuropeUnited* [Speech]. Federal Foreign Office.

Memorandum from the meeting of Chancellor Angela Merkel and President Dmitry Medvedev on 4–5 June 2010 in Meseberg. (2010). Federal Government of Germany.

Prezident Rossii. (2009, November 29). *Proekt dogovora o evropeyskoy bezopasnosti* (in Russian).

Putin, V. V. (2007, February 10). *Vystuplenie i diskussiya na Myunkhenskoy konferentsii po voprosam politiki bezopasnosti* (in Russian).

Regierungserklärung von Bundeskanzlerin Angela Merkel vor dem Deutschen Bundestag. (2009, November 10). *Deutscher Bundestag Plenarprotokoll 17/3.*

Speck, U. (2016, April). *The West's response to the Ukrainian conflict: A transatlantic success story* (Research Report No. 4). Transatlantic Academy.

Speck, U. (2018, October 7). Toward a new Ostpolitik. *Berlin Policy Journal.*

Steinmeier, F.-W. (2008, May 13). *Rede des Außenministers Frank-Walter Steinmeier am Institut für internationale Beziehungen der Ural-Universität in Jekaterinburg.* Auswärtiges Amt.